Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Qələmində hər nəsli düşünən Mirzə Fətəli Axundov

**Yazıçı-dramaturq, ictimai xadim M.F.Axundovun 210 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2022**

**Tərtibçi:** **Nərgiz Məcidova**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Qələmində hər nəsli düşünən M.F.Axundov -** Yazıçı, dramaturq M.F.Axundovun 210 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed.Nərgiz Məcidova; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. - 51 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Bölmə I

**“Dünyada insan üçün ən böyük ləyaqət hissi özündən sonra yaxşı ad qoyub getməkdir ki, bu da yalnız yaxşı əməllər sayəsində ola bilər.”**

Dramaturqun bu fikirlərindən M.F.Axundzadənin maarifçi görüşlərilə bəşəriyyətə xidmət edərək xalqının maariflənmə, tərəqqi yolu ilə irəliləməsi, millətinin dostluğu və qardaşlığı, insanların azad və xoşbəxt yaşaması üçün döyüşən bir vətənpərvər kimi dünya ədəbiyyatının ölməz simaları sırasına öz adını qızıl hərflərlə yazmış bir şəxsiyyət olduğu görünür. Həqiqətən Mirzə Fətəli Axundzadə Azərbaycan mədəniyyəti və ədəbiyyatında tarixi xidmətləri böyük olmuş və yüksək qiymətləndirilmiş bir sənətkardır.

Azərbaycan dramaturgiyasının banisi, böyük mütəfəkkir, ictimai xadim M.F.Axundov 1812-ci ildə Azərbaycanın qədim əyalətlərindən olan Nuxada anadan olmuşdur. O, 13 yaşınadək atası Mirzə Məhəmmədtağı və anası Nanə xanım ilə birlikdə Cənubi Azərbaycanın müxtəlif bölgələrində yaşamışdır. M.F.Axundovun ata babası Cənubi Azərbaycandan, atası Məhəmməd Tağı Hacı Əhməd oğlu isə Təbriz vilayətinin Xamnə qəsəbəsindən olmuşdur. Bir müddət atası Məhəmməd Tağı və babası Hacı Əhməd bu qəsəbənin, eləcə də ona yaxın olan kəndlərin kəndxudası olmuşlar. Sonralar atası işində 3 nəfər əsgərə verdiyi cəzaya görə vəzifəsindən azad edilmiş və əmlakı müsadirə olunmuşdur. Çətinlik çəkən ailəsini dolandırmaq üçün Mirzə Məhəmməd Tağı Arazın bu tayına keçərək çərçilik edə-edə Nuxaya gəlib çıxır. Bir eloğlu kimi Şəki mahalının hakimi Cəfərqulu xan Xamnəliyə pənah aparır. 1814-cü ildə Cəfərqulu xan vəfat etdikdən sonra onun himayəsi

altında yaşayan İran mühacirlərinin köməyi ilə Mirzə Fətəlinin atası Mirzə Məhəmməd Tağı Nanə xanımı və körpə oğlu Fətəlini götürüb Xamnəyə qayıdır. İki yaşlı Fətəli də bu zamandan etibarən anası Nanə xanımla birlikdə Xamnədə yaşayır. 1825-ci ildə Mirzə Fətəli yenidən anası ilə Şəkiyə qayıdır. Onun ruhani olmasını istəyən anasının əmisi Axund Hacı Ələsgər 1832-ci ildə onu Gəncəyə aparır və burada Mirzə Şəfi Vazeh ilə tanış olur. Bu da onun həyatının dönüş nöqtəsi olur, Mirzə Fətəlinin həyat və yaradıcılığına, ümumiyyətlə, onun bir mütəfəkkir kimi formalaşmasına ciddi təsir göstərir. Dövrünün müasir elmləri ilə maraqlanan Fətəli 1833-cü ildə Şəkidə açılmış rus məktəbinə daxil olur və bir il burada təhsil alır. 1834-cü ildə Tiflisə gedir, Qafqaz canişininin baş dəftərxanasında mülki işlər sahəsində Şərq dilləri mütərcimi təyin olunur və ömrünün sonuna qədər bu vəzifədə çalışır. 1873-cü ildə isə ona polkovnik hərbi rütbəsi verilir.1851-ci ildə Rus Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinə üzv seçilən Axundov sonralar Qafqaz Arxeoqrafiya Komissiyasında tədqiqat işlərinə cəlb olunur. "Əkinçi" qəzetinin nəşrinə böyük əhəmiyyət verərək, onun səhifələrində "Vəkili Milləti-Naməlum" imzası ilə məqalələr dərc etdirir. Mirzə Fətəli Axundov 1878-ci ildə Tiflisdə vəfat edir və köhnə müsəlman qəbirstanlığında dəfn edilir.

## Yubiley tədbirlərinin keçirilməsi:

M.F.Axundzadənin yaradıcılığı ədəbiyyat tariximizin ən qiymətli və ən dəyərli səhifələrindəndir. O, misilsiz istedada malik mütəfəkkir, yazıçı-dramaturq, ictimai xadim olmaqla ədəbiyyat tariximizdə, yeni ədəbi-bədii məktəb yaratmış bir şəxsiyyətdir. Komediyaları ilə Azərbaycan ədəbiyyatı tarixində Milli dramaturgiyamızın banisi kimi geniş şöhrət qazanmışdır. Yazdığı *"Hekayəti-Molla İbrahimxəlil kimyagər", "Hekayəti-Müsyo Jordan həkimi nəbat və dərviş Məstəli şah cadukuni-məşhur", "Hekayəti-xırs quldurbasan", "Sərgüzəşti-vəziri-xani-Lənkəran", "Sərgüzəşti-mərdi-xəsis", "Mürafiə vəkillərinin hekayəti"* adlı komediyaları ilə Azərbaycan ədəbiyyatında böyük dönüş yaratmışdır. Məlumdur ki, bu il qüdrətli sənətkarın anadan olmasının 210 illik yubileyi keçiriləcəkdir. Hər zaman Azərbaycan xalqı bu böyük mütəfəkkirin yaradıcılığını yüksək qiymətləndirmişdir. Belə ki, 1961-ci il dekabr ayının 19-da Stokholmda Ümumdünya Sülh Şurasının qərarına əsasən dünyanın bütün sülhsevər xalqları ədibin anadan olmasının 150 illiyini qeyd etmişlər. Ötən əsrin 20-ci illərində Firidun bəy Köçərlinin yazdığı "Mirzə Fətəli Axundzadə" adlı monoqrafiyası da onun 100 illik yubileyinə verilmiş gözəl  dəyərlərdəndir. Burada görkəmli ədib Firidun bəy Köçərli M.F.Axundzadə şəxsiyyəti və dramaturgiyası haqqında öz dəyərli fikirlərini ifadə etmişdir ki, "Milli ədiblərimizin atası, təmsilat yazanlarımızın ustadı-kamili, ədəbiyyatımızın fəxri, şəkk-şübhəsiz  Mirzə Fətəli Axundovdur ki, onun qələmindən ədəbiyyatın hər növ əsərləri vücuda gəlibdir: komediyaları, tənqidə dair gözəl məqalələr, abidar şeirlər, fars və türk dillərində şirin hekayələr və qeyriləri.

M.Fətəlinin təbirində elə bir zəriflik, yaratmaqlıq qüvvəsi var imiş ki, bunların misli az mühərrirlərdə müşahidə olunur."

Yubileyə hazırlıq zamanı M.F.Axundzadənin həyat və fəaliyyətini təbliğ etmək üçün kitabxanada "Bütün bəşəriyyəti sevən Mirzə Fətəli Axundzadə", "M.F.Axundzadə 210" adlı sərgi təşkil etmək olar. Sərginin məqsədi oxucuları Axundzadənin yaradıcılığı ilə tanış etmək, onları mütaliə etməyə cəlb etmək və kitabxananın fondunda Axundzadəylə bağlı ədəbiyyatı oxucular qarşısında açmaqdır. Kitablardan əlavə sərgidə dövri mətbuatda Axundzadə ilə bağlı vəsaitlərdəndə istifadə edə bilərik. Stendlərin birini yubilyarın həyat və yaradıcılıq şəkillərindən ibarət fotolarlada təşkil edə bilərik. Sərginin sxemini təqdim edirik:

1. Başlıq
2. Kitabların nümayişi
3. Dövri mətbuatda çap edilmiş məqalələr
4. Haqqında deyilmiş fikirlər
5. Axundovun söylədiyi fikirlər
6. Fotolar
   https://drive.google.com/file/d/17jiVnjRh3NKum2kyixr6GU06QdA3PNjo/view
   https://drive.google.com/file/d/1Z1cFq5qtEq9t_a-6e-WFSVWRKVNHG2Wy/view
   https://drive.google.com/file/d/1wR2EsrAuCzgupblars6l07OIOoU-r6Gh/view
   https://drive.google.com/file/d/1BCVF1dDatvUr7KNpDcbGEMk23-kWA-g3/view

Bu kitablarla clb.az saytında pdf variantda tam mətnlə tanış ola bilərsiniz

# Sərgi


MİRZƏ FƏTƏLİ
AXUNDZADƏ
ƏSƏRLƏRİ


AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏRKƏZİ ELMİ KİTABXANA
MİRZƏ FƏTƏLİ
AXUNDZADƏ
BİBLİOQRAFİYA


MİRZƏ
FƏTƏLİ
AXUNDZADƏ
Əsərləri
I cild


M.F. AXUNDOV
ƏSƏRLƏRİ
BAKI 2001


silinməz izlər
NƏRGİZ CABBARLI
Axundzadə
şəxsiyyəti


200
M.F.Axundzadə irsinin
kitabxanalarda təbliği
BAKI - 2012


М.Ф.АХУНДОВ
КОМЕДИЈАЛАР


"Klassiklərim" seriyası
MİRZƏ FƏTƏLİ
AXUNDZADƏ
Aldanmış Kəvakib


Mirzə Fətəli Axundzadə
Aldanmış kəvakib
və ya (Hekayəti-Yusif Şah)
/mini KLASSİKA/

Mirzə Fətəli Axundzadə bütün həyatı boyu doğma vətəninin və xalqının tərəqqisi yolunda yorulmadan çalışaraq yeni dövrün irəli sürdüyü mühüm elmi, mədəni və ictimai-siyasi məsələlərə daim fəal münasibət ifadə edən və zamanın qabaqcıl ideyalarından bəhrələnməyə çağıran yaradıcılığı ilə Azərbaycan mədəniyyətinin inkişafı tarixində parlaq səhifə açmışdır.

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

M.F.Axundzadənin yaradıcılıq yolunu səciyyələndirən tarix səhifələrini vərəqləyərkən biz böyük iftixar hissi keçiririk ki, xalqımız ağır zamanlarda, gerilik, dini fanatizm şəraitində belə görkəmli şəxsiyyət, öz dövrünü qabaqlayaraq gözəl əsərlər yaradan bir insan yetişdirmişdir...

**Heydər Əliyev,**
*Ümummilli lider*

M.F.Axundov ümumi Şərq xalqlarını, xüsusən azərbaycanlıları maarifləndirmək, yeni mədəniyyət aləminə daxil etmək, feodalizm və din əsarətindən xilas etmək uğrunda mübarizə apararkən, ictimai ünsiyyətin əvəzsiz vasitəsi- mədəniyyətin forması və ən kəskin silahı olan dili nəzərdən qaçırmamış, hətta dil və onun təzahür forması olan yazı məsələsi ilə xüsusi məşğul olmuşdur.

**Ə.Dəmirçizadə,**
*professor*

M.F.Axundovun A.S. Puşkinin ölümünə yazdığı "Şərq poeması" Buxarada demək olar ki, dərhal yayılmış və əmirliyin tərəqqipərvər xadimlərinin zəkasına yol tapmışdır.

**Mirzo Tursunzadə,**
*tacik şairi*




**M.F.Axundovun fikirləri:**

“ Mən o hərifl ərdən deyiləm ki, düşmən qarşısında qalxanımı yerə atıb ona təslim olam. Mən nə qədər diriyəm, İstanbul vəzirlərilə qələmlə vuruşacağam ”.

Mirzə Fətəli Axundovun fikrincə, kamil adam olmaq üçün aşağıdakı 7 vəzifəni yerinə yetirmək vacibdir:

1. İnsan pis əməldən qaçmalıdır.
2. İnsan hər zaman yaxşılıq etməyə çalışmalıdır.
3. İnsan zülmü dəf etməyə çalışmalıdır.
4. İnsan öz həmcinsləri ilə cəmiyyətdə müttəfiq yaşamalıdır.
5. İnsan elm ardınca getməlidir.
6. İnsan hər yerdə elm nuru yaymağa səy etməlidir.
7. İnsan öz qüvvəsi və imkanları daxilində özünə müttəfiq olan cəmiyyət, öz həmvətənləri içərisində qayda və qanunları mühafizə etmək uğrunda mübarizə aparmalıdır.

**İcmal:**

Kitabxanada “*M.F.Axundov və onun əsərləri”* mövzusunda müəllifin həyat və yaradıcılığını əhatə edən icmal təşkil etmək olar. İcmalın daha əhatəli olması üçün onu sərgi ətrafında, kitabxanada keçirilən digər tədbirlərlə birgə keçirmək daha maraqlı olar. Belə olduqda icmal və tədbir bir-birini

tamamlayacaqdır. Tədbirin sonunda M.F.Axundovun əsərindən bir parça nümayiş edilə bilər. Axundovun həyatı ilə iştirakçıları daha yaxından tanış etmək üçün aşağıdakı video çarxı nümayiş edə bilərik. Linkdə onun həyat və yaradıcılığı haqqında ətraflı məlumat verilmişdir.

https://www.youtube.com/watch?v=VmaTVtpStGw

Kitabxanada biblioqrafik icmallar geniş yayılmış şifahi təbliğat üsullarından biridir. Tövsiyə xarakterli icmallar əsasən mütəxəssis oxucular üçün təşkil edilir ki, burada da əsas məqsəd oxucuları yubilyar haqqında ədəbiyyatla tanış etməkdir. M.F Axundovun 200 illik yubileyi münasibətilə 2012-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən türk dilində çap edilmiş "Bir Cimrinin hekayəsi" adlı kitabının icmalını keçirə bilərik




**Ahundzade Mirze Feteli. Bir Cimrinin Hikayesi : Komediler / türkçeye çeviren İ. Avşar ; Azerbaycan Cumhuriyeti Kültür ve Turizm Bakanlığı. - Bakü : Tehsil, 2012. - 200 s.**

Qızıl fonddan:
Axundov M.F.-Aldanmis kevakib1938.pdf

**Rəsm müsabiqəsi:**

Axundzadənin həm təbiətşünas, həm bir filosof, həm maarifçi və ictimai xadim kimi fəaliyyətini nəzərə alaraq kitabxanada "M.F.Axundzadəni necə görürsən?" adlı rəsm müsabiqəsi təşkil etmək olar. Belə rəsm müsabiqələri uşaqların Axundzadə haqqında biliklərinin artmasına imkan yaradır. Bu əsərlərdə formalaşan kiçik təsəvvürlər gələcək üçün böyük təməl yaradır və cəmiyyətin mühüm bir zümrəsi olan gənc nəsildə Axundzadənin həyat və fəaliyyəti haqqında biliklərin formalaşmasına xidmət edir

**Axundov və təlim tərbiyə:**

M.F.Axundzadə hər şeydən əvvəl Azərbaycan məktəb və pedaqoji fikir tarixinə həm müəllim, həm də təlim və tərbiyə sahəsinə ilk orijinal fikirlər söyləyən pedaqoq kimi bir iz qoymuşdur. Fikirlərində gənc nəslin təlim-tərbiyəsində müəllimin, tərbiyəçinin roluna böyük qiymət vermişdir. O, yüksək ideyalılıq, hərtərəfli bilik və bacarıq, elmi dünyagörüş, təlim və tərbiyənin üsullarını hər müəllimin bilməsi lazım olduğunu fikirləşirdi. Müəllif əxlaq saflığının hər bir insana xas xüsusiyyətlərdən olduğunu əsas sayırdı. Müəllimləri uşaqları şən və gümrah tərbiyə etməyə və dünya zövqlərindən – musiqidən, rəsmdən, rəqsdən və s. məhrum etməməyə çağırırdı. M.F.Axundov ailədə və cəmiyyətdə uşaqlara nəcib əxlaqi keyfiyyətlər aşılanmasına, onlarda vətənpərvərlik tərbiyəsinin yüksək olmasına böyük əhəmiyyət verirdi. O, əxlaq tərbiyəsi haqqındakı fikirlərində uşaqlara yoldaşlıq, sədaqət, insanpərvərlik və dostluğun öyrədilməsini əsas hesab edirdi. Cəmiyyətin üzvlərinin xalqa, qadın hüququna hörmət bəsləyən, nəzakətli, mədəni, həqiqəti sevən, özünə və başqalarına tələbkar

adamlar olmalarını arzu edirdi. Fikirlərində qeyd edirdi ki, yeni insan, mətin iradəli, yeniliyi, azadlığı sevməyi, zülmə, ədalətsizliyə nifrət etməyi bacaran mübariz qəhrəmanlar kimi yetişməlidir. İstəyirdi ki, yeni insan xalqın mənafeyini öz şəxsi mənafeyindən üstün tutan, dostluqda, yoldaşlıqda sədaqətli, möhkəm ideyalı, prinsipial olsun. İstəyirdi ki, cəmiyyətin üzvləri xalqa, qadın hüququna hörmət bəsləyən, nəzakətli, mədəni, həqiqəti sevən, özünə və başqalarına tələbkar adamlar olsun. Kitbxanada müəllifin bu fikirlərini rəhbər tutaraq, yubilyarı gənc nəslə tanıtmaq üçün sərgi, söhbət, bu mövzu ətrafında kitabxanaçılara *“M.F. Axundovun əsərlərində təlim tərbiyə məsələləri haqqında fikirlər”*adlı seminar təşkil edə bilərik. Keçiriləcək seminar bütün kitabxana ictimaiyyəti üçün aktual olan movzulardan təlim-tərbiyə mövzusunun kitabxanalarda necə təbliğinə, M.F. Axundovun yaratdığı əsərlərdə təlim-tərbiyə məsələləri mövzusuna həsr edə bilərik. M.F.Axundov yaradıcılığının bu mövzuda necə örnək olması haqqında kitabxanaçılara köməklik göstərə bilərik. Onlara metodiki kömək göstərmək məqsədilə Axundov yaradıcılığını araşdıraraq, təhlil edərək yazılmış bu metodiki vəsaitdən də kitabxanaçılara istifadə etməyi tövsiyyə edirik.

Kitabxanada dramaturqun “Kəmalüdövlə məktubları”ı əsərindən oxuculara məlumatlar verə bilərik. Əsərdə o, yazırdı ki, uşaqları tərbiyə edərkən onları çubuq və sillə ilə vurmaq onların əxlaq və tərbiyəsini pozur, onların qorxaq və yaltaq olmasına səbəb olur. Buda onların gələcəkdə tam şəxsiyyət kimi yetişməsinə mane olar. 1865-ci ildə yazdığı bədii–fəlsəfi traktat. Bu əsər Axundovun yazdığı ən mühüm tənqid tipli publisistik işi sayılır. Hind şahzadəsi Kəmalüddövlə ilə fars şahzadəsi Cəlalüddövlənin yazışması süjetin əsasını təşkil edir. Burada

yazıçı hər cür dini fanatizmi aradan qaldırmaq üçün amansız mübarizəni qarşısına məqsəd qoyur. Odur ki, "Kəmalüddövlə məktubları" bəşəriyyətə xidmət etmək, şərq xalqlarını dini xurafatdan, zalımların əsarət zəncirindən azad etmək üçün zülmə və əsarətə qarşı mübarizə silahına çevrilir.

**Kəmalüddövlə məktubları :**

Əsərin məzmununa görə Kəmalüddövlə ilə Cəlalüddövlə şahzadədirlər. Hər ikisi siyasi təqiblər üzündən Misirə köçməyə məcbur olmuşlar. Kəmalüddövlənin vətəni Hindistanda ingilislər ağalıq edir, onlar Kəmalüddövlənin atası Övrəng Zibi hakimiyyət başından götürüb məmləkətə sahib olmuşlar. Cəlalüddövlə isə vətəni İranda despotun özbaşınalığına və zülmünə dözə bilməyib Misirə köçmək məcburiyyətində qalmışdır. Göründüyü kimi, hər iki şahzadə ölkələrində hökm sürən vəziyyətlə barışa bilmir, vətənlərinin geridə qalmasına acıyır və düçar olduqları fəlakətdən xilas olmaq üçün yollar axtarır. Kəmalüddövlə səyahətə çıxır, əvvəl Amerika, sonra Avropa ölkələrini gəzir. Onun bu səyahəti adicə seyr etmək və ya əylənmək məqsədi daşımır, öz ölkəsinin və xalqının, eləcə də Şərq xalqlarının geridə qalması səbəblərini öyrənmək, tərəqqi etmiş ölkələrin ictimai-siyasi quruluşu ilə tanış olmaq, bir sözlə, onların irəliləməsinin əsas şərtlərini araşdırmaq üçündür. Bu müdrik səyyah Qərb ölkələrini gəzdikdən sonra dostu Cəlalüddövlənin xahişi ilə onun vətəni İrana gedir. Kəmalüddövlə İranın pərişan halını görüb kədərlənir, Amerika və Avropa ölkələrinin abadlığını və əhalisinin sərbəst yaşayışını Şərq ölkələrindəki vəziyyətlə müqayisə etdikdə dəhşətə gəlir. Dəhşət bir də ona görədir ki, bu ölkələrin əhalisi və onların

dünyadan xəbərsiz başçıları düçar olduqları vəziyyətin ağırlığını dərk etmir, ona görə də xalq hər cür zülmə, rəzalətə dözür, "nəşəyi-azadiyyətdən və hüquqi-insaniyyətdən" xəbərsiz yaşayır. Bu əsərin müzakirəsini keçirməklə oxuculara hər zaman Vətənə bağlı olmağı, onu sevməyi, öz Vətəninin yurdunun gözəl firavan yaşaması üçün çalışmağı tövsiyə edə bilərik.




**Axundov Fətəli (Mirzə ; 1812-1878). Kəmalüddövlə məktubları //Əsərləri. 3 clddə. - Bakı : Şərq-Qərb, 2005. - C.2. - S. 20-129.**

**Axundov və əlifba:**

M.F.Axundzadənin ən böyük arzularından biri ərəb əlifbasını dəyişdirmək olmuşdur. Bu arzusunu həyata keçirə bilməyən ədib yazırdı ki: ***"Əfsus, min əfsus ki, nə İranda, nə Osmanlıda islam xalqlarının başçıları xalqın tərəqqisi xatirinə islam əlifbasını dəyişməyə təşəbbüs göstərmədilər ki, bu vasitə ilə ölkənin əhalisi qadınlı-kişili bir neçə ayın içərisində başdan-başa savadlı olsunlar və bu vasitə ilə Avropanın hazırkı bütün elmləri bir neçə ilin ərzində islam xalqlarının dilinə tərcümə edilsin və elmlərin yayılması ilə islam xalqları xoşbəxtlik yoluna çıxsınlar."***

M.F.Axundzadə geniş xalq kütlələrinin savadlandırılması işində ərəb əlifbasının böyük əngəl olduğunu görərək 1857- ci ildən bu əlifbanın dəyişdirilməsinə çalışmışdır. O belə hesab edirdi ki, ərəb əlifbası ərəb olmayan xalqlar üçün, o cümlədən türkdilli xalqlar üçün əsla əlverişli deyil. O, əvvəlcə ərəb əlifbasının islahatına, sonra isə latın əlifbası əsasında yeni əlifbanın yaradılmasına dair layihələr tərtib etmişdir.
M.F.Axundov geniş xalq kütlələrini tez və asan bir yolla savadlandırmaq üçün köhnə ərəb əlifbasının dəyişdirilməsi uğrunda mübarizə aparıb, Azərbaycan dilinin sadələşdirilməsi uğrunda çalışıb, dramatik əsərlərini çox sadə xalq danışıq dilində yazıb. M.F.Axundov da xalq ədəbiyyatına böyük əhəmiyyət verib və ədəbi yaradıcılığında xalq ədəbiyyatının tükənməz xəzinəsindən istifadə edib.

Əlifba sahəsində böyük maneələrə baxmayaraq, alovlu vətənpərvər ədib öz məsləkindən dönməmişdir, ömrünün axırına qədər bu sahədə qələm çalmış, Osmanlı vəzirləri, İran mürtəceləri ilə qələm mübarizəsi aparmışdır. Yazıçı həmin məsələ ilə əlaqədar olaraq özünün məşhur “*Əlifba haqqında mənzumə”* əsərini yazmışdır.

Fətəlişünasların yazdıqlarına görə, böyük maarifçi bu yolda mübarizə apararkən yalnız bununla özünə təsəlli verirdi ki, o, dünyadan həsrətlə, min təəssüflə gedirsə də, onun bu yüksək arzusu xələfləri tərəfindən həyata keçiriləcək.

Özünə bu arzusunu həyata keçirmək qismət olmasada M.F.Axundzadənin bu ideyası əvvəlcə keçən əsrin 20-30-cu illərində, zəmanəmizdə isə 90-cı illərdə həyata keçirildi.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə

M.F.Axundzadənin əsərləri də üç cilddə nəşr olunaraq ölkə kitabxanalarına hədiyyə edildi. Oxucuların əlifba tariximizin keşməkeşli yollarından danışarkən bu əsər haqqındada onları məlumatlandıra bilərik. Əsər Mirzə Fətəlinin fars dilində yazdığı irihəcmli şerlərindən biri "Yeni əlifba haqqında mənzumə" adlanır. Avtobioqrafik səciyyə daşıyan bu şerdə M.F.Axundzadə özünün "vətən sevgisi üzündən çox tədbirlərə əl atıb, səy göstərməsindən , xüsusilə ərəb əlifbasını islah etmək uğrunda mübarizəsindən, lakin zəhmətinin səmərəsiz qaldığından bəhs edib, acı təəssüf hissi ilə yazır: "Cavanlığım getdi, qüvvəm puç oldu. Səadət mənimlə həmnəfəs olduğu halda birindən sarı üzlü bir kişicik mənim arzu piyaləmə zəhər damızdırdı. On illik zəhmətim onun sayəsində heç oldu". Deyir

Bu daim olmayan  dünyada mənim ömrüm,
Həsrət və qüssə ilə başa çatdı.
Vətən sevgisi üzündən,
Çox tədbirlərə əl atdım.
Ancaq səyim bir nəticə vermədi,
Bu əsrdə bir könül sahibi görmədim.
Türklərin və İran torpağının böyükləri
Hamısı Çin xalqı kimi yatmışdılar.
Cavanlığım getdi, qüvvəm puç oldu,
Zövqlü və ehtiraslı bir cavan görmədim.
Dəniz yolu ilə Ruma səfər etdim,
Yeni əlifbanı o ölkədə
Bütün dövlət başçılarına göstərdim.
Xəyalım çiy deyildi, çox pişkin idi.
Birər-birər mənə "Yüz sağ ol!" dedilər....

**Axundov Fətəli (Mirzə ; 1812-1878). Yeni əlifba haqqında mənzumə //Əsərləri. 3 cilddə. - Bakı : Şərq-Qərb, 2005. - C.1. - S.233-237 .**

**Kitab müzakirəsi:**

Oxucular arasında bədii ədəbiyyatı təbliğ etməyin ən geniş yayılmış şifahi üsullarından biridə kitab müzakirəsidir. Hər hansı bir kitab haqqında olan kitab müzakirəsi oxucu fəallığının artmasına, bədii-estetik zövqlərin formalaşmasına, kitab üzərində müstəqil işləmək, oxuduqları çap əsərləri haqqında sərbəst fikir yürütmə bacarığının yaranması üçün oxuculara təsir göstərir. Müzakirələrdə uşaq kitabxanası olaraq boyük yaş qrupu - şagirdlər, başqa oxucular fəal iştirak edirlər. Bədii ədəbiyyata meylin yaranmasında belə müzakirələr böyük əhəmiyyət kəsb edir. Bir qayda olaraq müzakirələrə həyat həqiqətini düzgün əks etdirən, vətənpərvərlik hissləri aşılayan bədii əsərlər və kitablar çıxarılır. M.F.Axundovun yaradıcılığını və şəxsiyyətini oxuculara tanıtmaq üçün hazırlanmış müzakirə tərtib edilmiş plan əsasında hazırlanır. Kitab müzakirəsi kitabxanaçının giriş sözü ilə açılır. Qısaca olaraq müəllifin yaradıcılığının əsas cəhətlərini nəzərə çatdırılır, müzakirə olunan kitabın mühüm məqamları qeyd edilir. Müzakirəyə Nərgiz Cabbarlının "Axundzadə şəxsiyyəti" kitabını təqdim edirik.




**Cabbarlı N. Axundzadə şəxsiyyəti; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. - Bakı : Təhsil, 2012. - 224 s.**

Kitabda yazıçının yaradıcılığı və həyat yolu elmi-publisistik yolla araşdırılır. Onunla bağlı müəyyən faktlara aydınlıq gətirilir, yazıçının şəxsiyyəti, həyatı, ailəsi, övladları ilə bağlı məlumat verilir. Giriş hissədə müəllifin Tiflisdə məzarlıqdakı M.F.Axundovun heykəli qarşısındakı düşüncələri ilə tanış ola bilərik. Kitabda həmçinin böyük yazıçı və dramaturqun şeirlərindən parçalar, məqalələr və s. nəşr edilmişdir.



**Aldanmış Kəvakib:**

O, bədii irsində 1957-ci ildə yazdığı “Aldanmış kəvakib” povesti ilə Azərbaycan bədii nəsrinə çox dolğun bir nümunə gətirmişdir. Bu əsəri ilə nəsr tariximizdə böyük bir yenilik yaratmışdır. Aldanmış Kəvakibə qədər ədəbiyyat tariximizdə Nizami Gəncəvi, Füzuli, Vaqif kimi istedadlı şairlər yetişdiyi halda nəsr çox az inkişaf etmişdir. Yalnız Abbasqulu Ağa Bakıxanovdan sonra Mirzə Fətəli Axundov “Aldanmış Kəvakib” əsəri ilə nəsr sahəsinə bir yenilik gətirmişdir. Azərbaycan ədəbiyyatında yeni tipli bədii nəsrin, müasir povest janrının ilk nümunəsi olan bu əsər 1857-ci ildə qələmə alınmışdır. Yazıçı povestin süjetini I Şah Abbasın səltənəti tarixini yazan İsgəndər bəy Münşinin “Tarixi-aləm-arayi-Abbasi” (“Dünyanı bəzəyən Abbasın tarixi”) əsərindən

götürmüşdür. M.F.Axundzadə tarixi bir hadisəni dövrünün müasir həyatı ilə əlaqələndirərək maraqlı bir əsər yaratmağa müvəffəq olmuşdur. Hekayənin süjeti iki hissədən ibarət olub birinci hissədə I Şah Abbas və vəzirləri, ikinci hissədə isə Yusif Sərracın şahlıq başına keçməsi və fəaliyyəti təsvir olunur.
Kitabxanada bu hekayədən M.F. Axundovun yubileyi ərəfəsində keçirilən tədbirlərdə istifadə edə bilərik.

(Səhnə yubiley tədbirinə uyğun qurulur)

**Aparıcı:** Baharın əvvəli idi, novruzdan üç gün keçmişdi. Şah Abbas günortadan üç saat keçmiş qəsrdə öz arvadı Səlma xatun ilə oturub söhbətə məşğul idi ki, xacəbaşı Mübarək içəri girib, baş əyərək ərz elədi ki :

(Münəcimmbaşı və Şah səhnədə görünür)

**M.b.** Mirzə Sədrəddin qibleyi-aləmin ziyarətinə müşərrəf olmaq istəyir, bir vacibi işdən ötrü.

**Şah:** Mirzə Sədrəddini çağır gəlsin!

*(Münəccimbaşı şahın hüzuruna daxil olub baş əydikdən sonra əl-əl üstə qabaqda durub, dua və səna etdi. Şah soruşdu ki:*

**Şah:** Mirzə, nə var?

**M.b.** Qibleyi-aləm sağ olsun, kəvakib seyrindən belə məlum olur ki, novruzdan on beş gün keçmiş Mərrixin Əqrəb ilə toqquşması nəticəsində Şərqdə, xüsusilə İran mülkündə bir səltənət sahibinin vücuduna böyük bir sədəmə yetişəcəkdir. Buna görə də şahın sədaqətli və fədakar bəndəsi olduğum üçün bunu hadisə başlamazdan əvvəl xəbər verməyi özümə borc bildim.

Şah bu vaxt çox cavan idi. Ömründən ancaq iyirmi iki il keçmişdi. Məlumdur ki, bu yaşda həyat necə şirin və əzizdir.

Xüsusən yüksək bir mənsəbdə və səltənən taxtının üstündə olanlar üçün. Bu səbəbdən münəccimbaşının xəbəri cavan şahı qorxuya saldı. Haman saat rəngi qaçıb, guya ki, bihuş oldu. Bir dəqiqədən sonra başın qaldırıb Mirzə Sədrəddinə buyurdu ki:

**Şah:** Xub, mürəxxəsən, get!

Münəccimbaşı baş əyib qayıtdı. Şah yalqız qəsrdə yarım saat fikrə getdi, sonra xacə Mübarəki səslədi. Xacə hüzura daxil olduqda buyurdu:

**Şah:** Fərraş göndər, bu saatda vəzir Mirzə Möhsünü və sərdar Zaman xanı və müstövfi Mirzə Yəhyanı və mollabaşı Axund Səmədi mənim hüzuruma çağırsın. Xacə çıxıb bir az vaxtdan sonra çağırılan şəxslər gəldilər və baş əyib şahın buyruğunu gözlədilər. Şah münəccimbaşının dediklərini onlara çatdırdıqdan sonra buyurdu ki:

**Şah:** Aya, sizin rəyinizə görə mən nə qismi tədbir ilə bu hadisəni öz vücudumdan dəf edə bilərəm? Məclisdəkilər hamısı heyrət içində qaldı. Bir dəqiqə sükutdan sonra vəzir Mirzə Möhsün başladı danışmağa:

**Mirzə Möhsün:** Əlbəttə, şahın xatirindədir ki, böyük və hörmətli atanızın padşahlıq vaxtlarında bir para ağıldan kəm şəxslərin vəzirlik vəzifəsinə başlaması səbəbindən dövlətin xəzinəsi nə qədər boşalmışdı. Bu əhvalatdan xəbərdar olduqda mən tədbirə başladım. Qərar qoydum

ki, şah qapısının nökərlərindən hər kəs bir vəzifəyə və ya bir vilayətin hökumətinə mənsub olsa, gücü çatdığı qədər, tutduğu vəzifəyə görə müəyyən miqdarda pul bəxşiş olaraq xəzinəyə təslim etsin və əlavə nə zaman ki qibleyi-aləm bir əmirin evini öz gəlişi ilə mübarək etsə, ev sahibi onun ayağının altına qumaş parçalar salsın və bir qədər pul bağışlasın. Bu növ tədbirin vasitəsilə dövlət xəzinəsi, şükür olsun Allaha, pul ilə doludur. Vəzirlik işlərinin irəli getməsində kiçik bəndəniz tərəfindən təcrübəsizlik təsəvvür edilməz, amma ulduzların müqabilində tədbir göstərməyə, həqiqətən, acizəm.

*Bundan sonra sərdar Zaman xan başladı:*

**Zaman xan:** Bu sədaqətli nökəriniz, saqqalımın tükünü ali və yüksək dövlətimizin xidmətinə sədaqət və hünərlə ağartmışam. Qibleyialəmin böyük və hörmətli atası İran qoşununun sərdarlığını mənə tapşırdı. Bizim qoşunumuz da say-hesabla Osmanlı tayfasından kəm deyildi, ancaq mənim heyfim gəldi ki, mömin və müqəddəs tayfanın qoşununu doğru yoldan azmışların qarşısında tələfə verdirim. Ona görə əmr etdim ki, Azərbaycan mülkündə bütün kəndlilərin əkin yerlərini xarab etsinlər və malqaralarını qovub gətirsinlər, körpüləri dağıtsınlar, yolları pozsunlar.

*Şahın qorxusu çox şiddətləndi. Sonra Mirzə Yəhya danışmağa başladı:*

**Mirzə Yəhya:** Bəllidir ki, qoşunun və orta dərəcəli qulluqçuçuların məvacibi qibleyialəmin fərmanına əsasən və mənim imzam ilə vilayətlərin mədaxilindən verilir; çünki dövlət xəzinəsində nəğd pul, necə ki vəzir söyləmişdi, çatışmırdı. Ona görə də mən bu cəhətdən çox qəmgin idim.

*Növbət yetişdi mollabaşıya. O söylədi:*

**Mollabaşı:** Bu qüdrətli dövlətin davam etməsi üçün bu dua edənin böyük və uca olan Səfəviyyə nəslinə səmimiyyət və sədaqəti tərifə sığmaz. Bu halda ki qibleyialəmin vücudu ulduzların təsirindən qorxu altındadır, mənim ürəyim tavadakı balıq kimi büryan olur. Qüsurlu ağlıma belə yetişir ki, o məlum münəccimbaşının özü bu işin çarəsini bizdən artıq bilir. O, qibleyialəmə xəyanət edibdir ki, ulduzların təsirini bildirib, əlbəttə, bir pis fikrə görə dəfinin çarəsini göstərməyib. Necə ola bilər ki, zəhəri göstərə zəhərin təsirini yox edən dərmanı göstərməkdən özünü kənara çəkə! Qibleyialəm onun özünü çağırsın. Bu hadisənin dəfi üçün onun özündən əlac istəsin. Əgər bir bəhanə gətirsə, boynunu vurdursun.

*Hər halda, haman uğursuz xəbərə görə şahın münəccimbaşıdan zəhləsi getmişdi. Xacə hazır olduqda buyurdu:*

**Xacə:** Bu saat xidmətçi göndər, münəccimbaşını mənim hüzuruma gətirsin! Bir saatdan sonra münəccimbaşı hazır oldu. Şah qəzəblənmiş aslan kimi dizi üstə çöküb müraciət etdi:

**Şah:** Pədərsüxtə, ulduzların bəlasından məni qorxudarsan və əlacını gizlərsən?! Cəllad! Dərhal üzgözündən dəhşət yağan cəllad belində xəncər, əlində ip içəri girdi. Biçarə münəccimbaşının ruhu uçun başladı yarpaq kimi titrəməyə. Şah cəllada buyurdu:

**Şah:** Apar, bu itin bu saatda boynunu vur!..

*Sərdar Zaman xan, hərçənd qılınc əhli idi, amma çox qəlbiyumşaq adam idi. Münəccimbaşının halına rəhmi gəlib, ayağa durub söylədi:*

**M.b.** Sənə qurban olum, bu itin boynu vurulandan sonra hadisənin ortadan qaldırılması üçün kimdən əlac soruşacağıq? Mən fağır və yazıq bəndə xahiş edirəm ki, mənim saqqalımın ağ tükləri hörmətinə onun ölümündən keçəsiniz. Hadisənin əlacı xüsusunda ondan tədbir soruşasınız. Əgər istədiyimizə uyğun cavab verməsə, o vaxt müqəssirdir və ölümü vacibdir.

*Şah münəccimbaşıya müraciət edib dedi ki:*

Məlun, bu saatda hadisənin ortadan qaldırılmasına əlac göstər. Biçarə münəccimbaşı yaman halda idi. Hadisənin aradan qaldırılması üçün heç bir əlac bilmirdi. Amma ölümün qorxusundan onu aşkara çıxara bilmədi.

**Aparıcı:** Mövlana otağa daxil olub, şaha lazım olan sitayişi əmələ gətirdi. Şahın işarəsi ilə oturub söylədi:

**Mövlana:** Qibleyi-aləm sağ olsun, bu bəndəniz qocalıq səbəbindən şah sarayından kənar olub, guşənişin olmuşamsa da, lakin bu vəziyyət, yəni Novruzdan on beş gün keçmiş Mərrixin Əqrəb ilə yaxınlaşmas yaxınlaşmasından qibleyi-aləmin zati-mübarəkinə böyük zərər ehtimalı olduğu üçün vacib bildim ki, qulluğunuza gəlim, qabaqcadan hadisəni elan edim və aradan qaldırılmasına tədbir göstərim.

**Aparıcı:** Şah kifayət dərəcədə xoşhal olub buyurdu ki:

**Şah:** Mövlana, biz elə o xüsusda söhbət edirdik. Tədbirinizi söyləyin.

**Mövlana:** Bu nəhs günlərdə, yəni Novruzdan on beş gün keçənədək gərək qibleyialəm şahlıqdan əl çəkə və taxt-tacı bir günahkar və ölümə layiq bir nəfərə təslim edə, özü də xalqın gözündən gizlənə. Belə olduqda ulduzların təsiri haman günahkarın başında çatlayacaq, çünki o vaxt İran padşahı odur. Elə ki, hadisə baş verdi və taxta oturan o günahkar fəla-

kətə yetişdi, o zaman qibleyi-aləm gizləndiyi yerdən çıxıb yenə taxt-taca malik olar, tamam xoşbəxtlik və səlamətliklə şahlıq edər. Amma gərək xalqdan heç kəs bu tədbiri bilməyə və zənn etməyə ki, qibleyi-aləm taxt-tacdan müvəqqəti əl qəsrdə çəkir, taki taxta çıxmalı olan günahkarı özlərinə müstəqil padşah bilər. Gərək hərəmxana xatunlarının da talağı verilib, kəbin kağızları cırıla. Sonra onlara təklif oluna ki, dəxi padşah deyil, adi camaatdan biri olan Abbas Məhəmməd oğluna ikinci dəfə kəbin kəsdirsin. Kasıblığa və qənaətə razı olarlarmı? Hansı birisi ki, razı olsa, ona ikinci dəfə Abbas Məhəmməd oğluna nikah oxuna və kəbin kağızı yazıla, hər kəs ki razı olmasa, həmin saat buraxıla.

**Aparıcı:** Münəccimbaşı qorxudan qurtardı, şahın üzündən tamamilə qorxu əsəri çəkildi, ağarmış rəngi özünə gəldi. Məclis əhlindən mövlananın ağlına və kamalına afərin sədası göyə qalxdı. Şah gülər üzünü mollabaşıya tutub sual etdi:

**Şah:** Şəriətin hökmlərinə uyğun, hədsiz dərəcədə günahkar və öldürülməsi vacib olan bir nəfər nəzərdə vardırmı ki, səltənəti və taxt-tacı ona həvalə edək?

**Mollabaşı:** Pərvərdigari-aləm qibleyi-aləmə uzun ömür kəramət etsin. Bu Qəzvin şəhərində bir nəfər yaramaz meydana çıxıbdır ki, bütün yer üzündə ondan çox günahkar və ölümə layiq nəfər tapılmaz. Adına

Yusif Sərrac deyərlər. Məlum deyildir ki, harada tərbiyə tapıbdır. Ancaq indi Qəzvin şəhərində yaşadığı üçün işi peşəsi məlum olmayan oğru-quldurdan özüm mürid cəm edib, həmişə möhtərəm ruhanilərin və parlaq şəriət xadimlərinin zərərinə və pisliyinə danışmaqdır. Bu məlun həmişə öz başına toplananlara aşkar söyləyir ki, guya möhtərəm ruhanilər avamları aldadırlar. Məsələn, onun əqidəsicə, guya dini hökmləri yerinə yetirmək lazım deyil; xüms və imam malı vermək doğru deyildir. Bundan əlavə, ali və yüksək dövlətə zidd zülmkar və quldurdular. Həmişə öz nəfslərinin həvəsi ilə biçarə xalqı cərimə edib sıxışdırır və təqib edirlər. Öz rəftarlarında heç bir qanun və qaydaya əsaslanan deyildirlər. Bu cür rəftar ancaq zülm və yolkəsənlərin əməlidir. Bəndəniz belə məsləhət görür ki, qibleyi-aləm səltənəti və taxt-tacı bu məluna təslim etsin ki, ulduzların təsirindən öz cəzasına yetişib, cəhənnəmə vasil olsun. Məclis əhli bu rəyi təsdiq edib, uca səslə dedilər:
Yusif Sərrac pədərsuxtə ölüm və göyün bəlasına layiqdir...

**Aparıcı:** Şah xoşhal olub buyurdu:

**Şah:** Onun həlakına razıyam. Sabah bu tədbir tamamkamal icra olunacaqdır. Şah məclisdəki şəxsləri azad etdi. Məclis dağıldı.

**M.F.Axundov realist nəsrimizin əsasını "Aldanmış kəvakib", yəni ikinci adı "Hekayəti Yusif şah" adlı əsəri ilə qoymuşdur. Əsərdə şah mütləqiyyəti tənqid olunur. Əsərin süjet xətti İsgəndər bəy Münşinin "Tarixi- aləmi-arayi-Abbasi" əsərindən götürülmüşdür**

**Axundov və teatr:**

M.F.Axundov təkcə Azərbaycanda deyil, bütün Yaxın Şərqdə dramaturgiya yaradıcılığı nümunələri yaratmış ilk ədibdir. Lakin, Axundov öz dram əsərlərini yaradarkən ancaq "baniyi-kar" olmaq, adəbi aləmə bir yenilik gətirmək məqsədilə kifayətlənməyib. Onun arzusu Azərbaycanda milli teatr yaratmaq idi. Maarifçi bir demokrat kimi, Axundov yaxşı başa düşürdü ki, elm və mədəniyyətin hələ az yayıldığı bir ölkədə xalqın tərəqqisinə nail olmaq üçün ən güclü vasitələrdən biri teatrdır. Teatr sənətin ən demokratik növlərindən olub, hamıya-padşahdan tutmuş fərraşa qədər-müyəssərdir və şüurların oyanmasına, zövqlərin tərbiyəsinə bilavasitə təsir göstərməyə qadirdir. Teatr elə bir sevinc və nəşə ocağıdır ki, xalqı ondan məhrum etmək ən böyük ədalətsizliklərdən biridir. M.F.Axundov xalq teatrının qədim tarixə və gözəl nümunələrə malik olduğunu hiss edir və bilirdi ki, Azərbaycan teatrı öz nümunəsini Avropa teatrından götürməli və qabaqcıl dünya teatr yolu ilə getməlidir. M.F.Axundov təkcə Azərbaycanda deyil,

bütün Yaxın Şərqdə dramaturgiya yaradıcılığı nümunələri yaratmış ilk ədibdir. Lakin, Axundov öz dram əsərlərini yaradarkən ancaq "baniyi-kar" olmaq, ədəbi aləmə bir yenilik gətirmək məqsədilə kifayətlənməyib. Onun arzusu Azərbaycanda milli teatr yaratmaq idi. Maarifçi bir demokrat kimi, Axundov yaxşı başa düşürdü ki, elm və mədəniyyətin hələ az yayıldığı bir ölkədə xalqın tərəqqisinə nail olmaq üçün ən güclü vasitələrdən biri teatrdır. Teatr sənətin ən demokratik növlərindən olub, hamıya - padşahdan tutmuş fərraşa qədər - müyəssərdir və şüurların oyanmasına, zövqlərin tərbiyəsinə bilavasitə təsir göstərməyə qadirdir. Teatr elə bir sevinc və nəşə ocağıdır ki, xalqı ondan məhrum etmək ən böyük ədalətsizliklərdən biridir.

M.F.Axundov xalq teatrının qədim tarixə və gözəl nümunələrə malik olduğunu hiss edir və bilirdi ki, Azərbaycan teatrı öz nümunəsini Avropa teatrından götürməli və qabaqcıl dünya teatr yolu ilə getməlidir. Böyük maarifçi Həsən bəy Zərdabi və görkəmli yazıçı Nəcəf bəy Vəzirovun təşəbbüsü ilə 1873-cü il martın 10-da Bakıda M.F.Axundovun "Lənkəran xanının vəziri" komediyasının tamaşaya hazırlanması ilə Azərbaycanda, eləcə də bütün müsəlman Şərqində peşəkar teatrın təməli qoyulub. Bu xəbəri "Qafqaz" jurnalından öyrənən M.F.Axundov Həsən bəy Zərdabiyə göndərdiyi məktubunda bu münasibətlə bunları yazmışdı: "Mən artıq qocalmışam və ölümümü gözləyirdim, amma bu xəbər mənim ömrümü 10 il uzatdı".Sonradan teatrın böyük ictimai əhəmiyyətini dərk edən Azərbaycan ziyalıları Naxçıvan, Şəki, Şamaxı, Lənkəran, Quba və Şuşa şəhərləri ilə bərabər, Tiflis və İrəvanda da teatr tamaşaları təşkil etdilər. 1918-ci ildə Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra bir çox sahələrdə olduğu kimi,

teatr sənətimizin inkişafında da mühüm işlər həyata keçirilib. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti pərakəndə fəaliyyət göstərən teatr truppalarını birləşdirərək Dövlət Teatrını yarandı. 1919-cu il oktyabrın 24-də Azərbaycan Xalq Cümhuriyyətinin bütün dövlət və hökumət rəhbərlərinin iştirakı ilə Dövlət Teatrının rəsmi açılışı oldu. Bu gün respublikada 26 dövlət teatrı fəaliyyət göstərir. Paytaxt Bakı Beynəlxalq Teatr Konfransı, UNİMA-nın iştirakı ilə Beynəlxalq Kukla Teatrları Festivalı, Çexov Festivalı kimi nüfuzlu tədbirlərə ev sahibliyi edir. Beləliklə Azərbaycan teatrı məhz Mirzə Fətəlinin ölməz komediyaları zəminində yarandı. 1873-cü ildə Həsən Bəy Zərdabi Nəcəf bəy Vəzirovla birlikdə Bakı məktəblərinin birində məşhur "Hacı Qara" əsərinin tamaşasını göstərməklə Azərbaycanda, həm də ümumən türk-müsəlman aləmində teatr hərəkatının əsasını qoydu. Mirzə Fətəli Axundzadə komediyalarında Azərbaycan qadınlarının timsalında ilk dəfə Şərq qadınlarının səhnə obrazlarını yarandı. Zamanına görə bu böyük işi məhz Mirzə Fətəlinin əsərlərini səhnəyə çıxarmaqla Azərbaycan maarifçiləri həyata keçirə bilmişdi. Mütəfəkkirin xatirəsini əbədiləşdirmək üçün
M. F. Axundov adına Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı böyük dramaturqun adını daşıyır.



Bundan əlavə Azərbaycan Respublikasının ən böyük kitabxanası – Milli Kitabxana Mirzə Fətəli Axundovun adını daşıyır. Ölkəmizin bir çox şəhər və rayonunda mütəfəkkir ədibin adına küçələr, Ağcabədidə, Xaçmazda Axundovun adını daşıyan məktəblər yerləşir. Bakıdakı Axundov parkıda yazıçının adını daşıyır. Mirzə Fətəli Axundovun parkdakı heykəli 1930 - cu ildə yaradılıb. Heykəl müəllifin sonralar SSRİ Dövlət mükafatına, Azərbaycanın Əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüs – Xalq rəssamı Pinxos Sabsayın ilk böyük əsəridir. Bu, Axundovun təsviri incəsənətdə ilk təsviridir, həmçinin Azərbaycanda ilk bürünc heykəldir. Sonradan teatrın böyük ictimai əhəmiyyətini dərk edən Azərbaycan ziyalıları Naxçıvan, Şəki, Şamaxı, Lənkəran, Quba və Şuşa şəhərləri ilə bərabər, Tiflis və İrəvanda da öz teatr tamaşalarını təşkil ediblər.

*Kitabxanada "Axundov və teatr" adlı oxucularla tədbirdə "Lənkəran xanının vəziri" tamaşasının nümayişini keçirə bilərik.*

**M.F.Axundovun yeni əlifba siyasəti:**

M.F. Axundzadə 1850 -1855-ci illərdə bir birinin ardınca altı komediya yazaraq ədəbiyyatımıza yeni ideya və baxışlar gətirmiş, demokratik və maarifçi görüşləri ilə xalqının

xidmətində durmuş şəxsiyyətlərdən biri olmuşdur. Xalqının tərəqqisi üçün yeni əlifba yaranması uğrunda apardığı 30 illik mübarizəsi elə maarifçilik fəaliyyətinin əsasını təşkil edib deyə bilərik. Maarifçilik görüşlərinin əsasının yeni əlifba layihəsi olduğunu tədqiq edərək akademik Feyzulla Qasımzadə "M.F. Axundovun həyat və yaradıcılığı" adlı monoqrafiyasında da bu haqda yazmışdır: "M. F. Axundov bütün ömrü boyu xalqın tərəqqisi uğrunda yorulmadan mübarizə aparmışdır. Yeni əlifbanın maariflənmə və savadsızlığın ləğvi işində müstəsna əhəmiyyəti olacağını bilən Axundov onun həyata keçirilməsi uğrunda 30 ilə yaxın çalışmış, İrana və Türkiyəyə getmiş, Rusiya və Avropa ölkələrinə məktublar göndərmiş, dost və tərəfdaşları ilə yazışmış, onun gənc nəsil tərəfindən öyrənilməsi üçün yollar və vasitələrə əl atmış, heç bir şeyi əsirgəməmişdir" ( 10, s. 316).

Xalqın tərəqqisi üçün görkəmli maarifçinin apardığı ərəb əlifbasını dəyişdirmək uğrunda mübarizəsi, qaragüruhçuların hər cür səyinə baxmayaraq tərəqqipərvər qüvvələr tərəfindən rəğbətlə qarşılanaraq alqışlanaraq, təltifə layiq görülmüşdür. Böyük ədib "Əlifba layihəsi"nin müzakirəsi məqsədilə Türkiyədə Fuad Paşanın Cəmiyyəti Elmiyyəsində olarkən özünün qəddar düşməni, İran şairi Süruşun Cəmiyyət üzvlərini onun əleyhinə qaldırmasına baxmayaraq alqışlanaraq paşa tərəfindən *"Məcidiyyə"* ordeninə layiq görülmüş, amma çox təəssüf ki, layihə qəbul olunmamışdır.

Professor Həmid Məmmədzadə M.F.Axundzadənin ərəb əlifbasının dəyişdirilməsi uğrunda mübarizəsinin milli və beynəlmiləl xarakterindən danışarkən yazır ki, "...böyük vətənpərvərin ömrünün yetkin dövrünün demək olar, əsas hissəsini həsr etdiyi bu mübarizə eyni zamanda ərəb əlifbasında

yazan xalqların, o cümlədən öz xalqının ana dilində təhsili uğrunda, ana dilində kitab və mətbuatın yaranması və nəhayət, milli maarifin və mədəniyyətin inkişafı uğrunda mübarizə idi”.
Dahi mütəfəkkir özünün yeni “əlifba layihəsi”ni doğma yurdu Nuxada da müzakirə etmək istəmiş, bu məqsədlə 1868 - ci ildə Nuxaya gəlmiş, lakin onun bu cəhdi də həmyerlilərinin mövhumatçılığı və cəhalətpərəstliyi ucbatından müvəffəqiyyətsizliyə uğramışdır. Mənbələrdə bu günədək Axundovşünaslıqda səslənməyən XIX əsrin II yarısı, XX əsrin əvvəllərində Şəkidə yazıb-yaradan İsmayıl bəy Nakamın M.F.Axundzadə ilə dostluq etməsi, onun maarifçilik görüşlərini alqışlaması ilə bağlı məlumatlar vardır.
Tədqiqatçı alim Kamil Adışirinov 2006 - cı ildə nəşr etdirmiş olduğu “ İsmayıl bəy Nakam: həyatı və bədii yaradıcılığı” adlı monoqrafiyasında Nakam-Mirzə Fətəli Axundzadə münasibətlərindən danışaraq yazır: “...Bir gün Asya xalanı Ağa Cabbarın evinə çağırırlar. Axşam evə tacirlərdən, axundlardan və mollalardan ibarət qonaqlar yığışır. Onların arasında M.F.Axundzadə də var idi. Bir müddətdən sonra din xadimləri ilə M.F.Axundzadə arasında onların geriliyi və cəhalətpərəsliyi ilə bağlı mübahisə başlayır. Mirzə Fətəli cəhalətpərəstliyin aradan qaldırılması üçün yeni əlifba layihəsi ilə çıxış edərək köhnə ərəb əlifbasının dəyişdirilməsi təklifini irəli sürür. Mübahisələrin gərgin vaxtında şair İsmayıl bəy Nakam və Ömər Əfəndi qızğın şəkildə onun tərəfində dururlar. Mübahisədə qələbə qazana bilməyən mollalar Ağa Cabbarın evini əsəbiliklə tərk edib, Mirzə Fətəli Axundzadənin və onun tərəfkeşlərinin (Nakamın və Ömər Əfəndinin-K.A.) çıxışları ilə bağlı şəhər hakimiyyətinə məlumat verirlər. İsmayıl bəy Nakam və Ömər Əfəndi evlərinə qayıtdıqdan sonra həbs olunaraq Elizavetpola

göndərilirlər. Mirzə Fətəli Axundzadəni isə şəhərdə axtarırlar. Gecə o, Asya xalanın qapısını döyərək onun evində gizlənir və ertəsi gün onun çadrasına bürünərək Tiflisə gedir.”

**Şeir müsabiqəsi:**

M.F.Axundzadə bədii yaradıcılığa “Səbuhi” təxəllüsü altında şeir yazmaqla başlasada, qələmini həm şeir, həm bədii nəsr, həm də dramaturgiya sahəsində sınayaraq bir-birindən gözəl əsərlər yaratmışdır ki, bununla o, Azərbaycan ədəbiyyatında azad düşüncə tərzinin ən böyük nümayəndəsi hesab edilir. O, gənclik illərində bir şair kimi bədii fəaliyyətə başlamış və ömrünün sonuna qədər yaradıcılığını davam etdirərək, həm klassik şeir həm də xalq şeir üslubunda bir çox silsilə əsərlər-lirik qoşmalar və gəraylılar, mənzum məktublar, satirik və əxlaqi-didaktik şeirlər, qəsidə vədhiyyələr yazmışdır. O hələ uşaq yaşlarında Mirzə Şəfi Vazehdən xüsusi dərs almışdır. Onun estetik zövqü, dünyagörüşü formalaşmışdır. Mirzə Fətəlinin bir şair kimi təbii istedadı, incə zövqlü, həqiqi şeirin mahiyyəti, tələb və vəzifəfələri haqqında düzgün və mükəmməl təsəvvürü var idi. Kitabxanada ən maraqlı tədbirlərdən biri də kitabxanada keçirilən şeir müsabiqələridir. Axundov yaradıcılığındakı şeirlər əsasında *“Axundzadə poeziyası”* janrı”şeir müsabiqəsi təşkil edə bilərik. Müsabiqənin təşkil edilməsi barədə ilk əvvəl oxucular üçün elan verilir. Müsabiqəyə *“Puşkinin ölümünə Şərq poeması”, “Zəmanədən şikayət”, “Zakirə məktub”,* və s bu səpkidə şeirlərini seçə bilərik. Müsabiqə günü oxucuların şeirləri dinlənildikdən sonra münsiflər tərəfindən qalib təyin olunur. Qliblər mükafatlandırılır.

Mənim də var gərçi bir az günahım,
Sən get hüzuruna ol üzrxahım,
Söylə ki, ey şahım, ey qibləgahım,
İncimə, gər etdim şikayət izhar!

**Ədəbi-bədii gecə:**

Kitabxanada böyük tərbiyəvi əhəmiyyət kəsb edən tədbirlərdən biri də “ədəbi-bədii gecələr”dir. Belə tədbirlər ədəbi-bədii zövqü formalaşdırır, mövzunu, yubilyarı oxuculara daha yaxşı çatdırmağa kömək edir. M.F.Axundovun yaradıcılığına həsr edilmiş gecədə onun hər hansı bir əsərinin səhnələşdirilməsi oxucuların yubilyarın yaradıcılığını öyrənməyə daha çox maraq oyadar. İlk əvvəl ssenariyə uyğun kitabxanada M.F. Axundova həsr edilmiş gecəyə müəllimlər, ədəbiyyatşünaslar, teatrşünaslar dəvət edilir. Ədəbi-bədii gecə keçiriləcək zal uyğun olaraq bəzədilir: stend vurulur, sərgi hazırlanır, güşələr qurulur, bületenlər hazırlanır. Təşkil edilmiş ədəbi-bədii gecədə çıxışlar dinlədikdən sonra bədii hissə başlayır. Burada şeirlər səslənir əsərlərdən ibarət kompozisiyalara baxılır, tamaşalardan səhnələr nümayiş edilir.

**Aparıcı:** Azərbaycan ədəbiyyatının qüdrətli simalarından biri olan Mirzə Fətəli Axundzadə Yaxın Şərqdə maarifçilik hərəkatının ilk nümayəndəsi və ideoloqudur.

**Aparıcı:** Peşəkar milli teatr sənətinin, realist bədii nəsrin, demokratik fəlsəfi və estetik fikrin, ilk əlifba inqilabının ümumiyyətlə mənəvi mədəniyyətimizin bütün sahələrində yeni dövrün banisi olan Axundzadənin zəngin yaradıcılığı ümumbəşəri bir məna kəsb edir.

**Aparıcı:** M.F.Axundov təkcə Azərbaycanda deyil, bütün Yaxın Şərqdə dramaturgiya yaradıcılığı nümunələri yaratmış ilk ədibdir.
**Aparıcı:** Lakin, Axundov öz dram əsərlərini yaradarkən ancaq ədəbi aləmə bir yenilik gətirmək məqsədilə kifayətlənməyib, onun arzusu həm də Azərbaycanda milli teatr yaratmaq olub. Axundov yaxşı başa düşüb ki, elm və mədəniyyətin hələ az yayıldığı bir ölkədə xalqın tərəqqisinə nail olmaq üçün ən güclü vasitələrdən biri məhz teatr ola bilər.
**Aparıcı:** Teatr şüurların oyanmasına, zövqlərin tərbiyəsinə bilavasitə təsir göstərməyə qadirdir. Teatr elə bir sevinc və nəşə ocağıdır ki, xalqı ondan məhrum etmək ən böyük ədalətsizliklərdən biridir.
**Aparıcı:** M.F.Axundov xalq teatrının qədim tarixə və gözəl nümunələrə malik olduğunu hiss edir və bilirdi ki, Azərbaycan teatrı qabaqcıl dünya teatr yolu ilə getməlidir.
**Aparıcı:**1873-cü ildə Həsənbəy Zərdabi Nəcəf bəy Vəzirovla birlikdə Bakı məktəblərinin M.F.Axundovun birində məşhur “Hacı Qara” əsərinin tamaşasını göstərməklə Azərbaycanda, həm də ümumən türk-müsəlman aləmində teatr hərəkatının əsasını qoymuşdur.

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin hazırladığı ədəbiyyat siyahısı:**

**Kitablarda**

**Əsərləri**

**Kirill qrafikası ilə**

Əsərləri: 3 clddə. C. 3. Seçilmiş məktublar. - Bakı: Azərnəşr, 1955. - 319 s.

Əsərləri: 3 cilddə. C. 2. - Bakı: Azərbaycan SSR EA, 1961. - 576 s.

Əsərləri: 3 cilddə. C. 3. - Bakı: Azərbaycan SSR EA, 1962. - 568 s.

Aldanmış kəvakib: hekayə. - Bakı: Azərnəşr, 1962. - 79 s.

Aldanmış kəvakib: Yusif şah haqqında hekayə. - Bakı: Gənclik, 1969. - 39 s.

Aldanmış kəvakib. Kəmalüddövlə məktubları. - Bakı: Maarif, 1985. - 176 s.

Aldanmış kəvakib: hekayə. - Bakı: Gənclik, 1977. - 39 s.

Bədii və fəlsəfi əsərləri. - Bakı: Yazıçı, 1987. - 365 s.

Xırs quldurbasan: 3 pərdəli. - Bakı: Uşaqgəncnəşr, 1949. - 40 s.

Kəmalüddövlə məktubları. - Bakı: Gənclik, 1969. – 143 s.

Kəmalüddövlə məktubları. - Bakı: Uşaqgəncnəşr, 1959. - 224 s.

Komediyalar, Povest, şeirlər. - Bakı: Yazıçı, 1982. – 271 s.

Komediyalar. - Bakı: Maarif, 1975. - 207 s.

Məqalələr məcmuəsi. - Bakı: Azərbaycan SSR EA nəşriyyatı, 1962. - 356 s.

Pyeslər. - Bakı: Uşaqgəncnəşr, 1959. – 199 s.

Şərq poeması. - Bakı: Azərbaycan SSR EA, 1964. - 12 s.

Latın qrafikası ilə

Əsərləri: 2 cilddə. C. 1. - Bakı: Atilla, 2000. - 128 s.

Əsərləri: 2 cilddə. C. 2. - Bakı: Atilla, 2001. - 104 s.

Əsərləri: 3 cilddə. C. 1.  - Bakı: Şərq-Qərb, 2005. - 296 s.
Əsərləri: 3 cilddə. C. 2. - Bakı: Şərq-Qərb, 2005. - 376 s.
Əsərləri: 3 cilddə. C. 3. - Bakı: Şərq-Qərb, 2005. - 296 s.
Bədii və ədəbi-tənqidi əsərləri. - Bakı: Çaşıoğlu, 2004. - 280 s.
Haqqında kitablarda
Kirill qrafikası ilə
**Cahangirov M.** M. F. Axundov dram əsərlərinin dili üzərində necə işləmişdir. - Bakı: Azərb. SSR EA nəşriyyatı, 1962. - 254 s.

**Əfəndiyev H**. Ə. M.F. Axundov realist-satirik nəsrinin davamçıları. - Bakı: Azərnəşr, 1974. - 172 s.

**Mehdiyev Ş.** F. Mirzə Fətəli: Həyatından lövhələr. - Bakı: Azərnəşr, 1969. - 96 s.

**Məmmədov A.** Mirzə Fətəli Axundov: Metodiki vəsait. - Bakı: , 1962. - 74 s.

**Məmmədzadə H**. Mirzə Fətəli Axundov və Şərq. Azərb. SSR EA müxbir üzvü, prof. M. C. Cəfərov. - Bakı: Elm, 1971. - 368 s.

Mirzə Fətəli Axundov: Məqalələr məcmuəsi. - Bakı: Azərbaycan SSR EA, 1962. - 355 s.

**Mustafayev Q.** Mirzə Fətəli Axundov. - Bakı: Azərnəşr, 1966. - 106 s.

**Qasımzadə F.** Mirzə Fətəli Axundovun həyat və yaradıcılığı. - Bakı: Azərnəşr, 1962. - 378 s.

**Rəfili M.** Mirzə Fətəli Axundov: Həyatı, mühiti və yaradıcılığı. - Bakı: Elm, 1990. - 256 s.

**Rüstəmov İ.** Mirzə Fətəli Axundov. - Bakı: Gənclik, 1968. - 71 s.

**Zəkiyev İ.** M.F. Axundov və kitab mədəniyyəti. - Bakı: Azərnəşr, 1974. - 80 s.

**Latın qrafikası ilə**

**Cabbarlı N.** Axundzadə şəxsiyyəti. - Bakı: Təhsil, 2012. - 224 s.

**Cəfərov C. H.** Axundov və teatr = М.Ф.Ахундов и театр. - Təkrar nəşr, Bərpanəşr, 1962-ci il nəşr əsasında. - Bakı: Renessans, 2016. - 130 s.

**Əlimirzəyev X.** M.F. Axundovun ideal və sənət dünyası. - Bakı: Nurlan, 2007. - 228 s.

M.F. Axundzadə irsinin kitabxanalarda təbliği. - Bakı: M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası, 2012. - 73 s

Mirzə Fətəli Axundzadə - 200: Biblioqrafiya. - Bakı: M.F. Axundov adına Azərbaycan Milli Kitabxanası, 2012. - 360 s.

Mirzə Fətəli Axundzadə və Gürcüstan: Ədəbi-bədii əsərlər toplusu. - Bakı: Təhsil, 2012. - 336 s.

Mirzə Fətəli Axundzadə və Gürcüstan: Ədəbi-bədii əsərlər toplusu. - Bakı: Təhsil, 2012. - 336 s.

**Dövrü mətbuatda**

Qəribə hekayə // Ədəbiyyat qəzeti. - 2017. - 8 aprel. - № 12. - S. 22-23.

205 ildir parlayan işıq: 30 iyun Mirzə Fətəli Axundzadənin doğum günüdür // Mədəniyyət. - 2017. - 30 iyun. - № 50. - S. 14.

**Abbaslı B.** Bəşər dostu olan mütəfəkkir: Mirzə Fətəli Axundzadə-200 // Psixoloq. - 2012. - 30 may. - № 5. - S. 7.

**Abbaslı T.** Başdan-başa dram Adam: 10 mart Mirzə Fətəli Axundzadənin xatirə günüdür // Mədəniyyət. - 2017. - 10 mart. - № 19. - S. 11.

**Abbaslı T.** Böyük Mirzələrimizdən biri: Azərbaycan dramaturgiyasının banisi, aldanmış kəvakibi: M. F. Axundzadə -200 // Mədəniyyət. - 2011. - 11 noyabr. - № 83. - S. 12.
**Abbaslı T.** Həqiqi dinli "dinsiz"... : Azərbaycan yazıçı-dramaturqu Mirzə Fətəli Axundzadənin məktubları haqqında // Mədəniyyət. - 2014. - 11 iyul. - № 53. - S. 12.
**Abbaslı T.** Hər zaman təzə mirzə - Azərbaycan dramaturgiyasının banisi Mirzə Fətəli Axundzadə // Mədəniyyət. - 2012. - 14 mart. - № 17. - S. 7.
**Abbaslı T.** İki böyük olum: biri 1812, o biri 1873 tarixçəsində // Mədəniyyət. - 2013. - 8 mart. - № 18. - S. 6.
**Abbaslı T.** Oturaq xalqı sənə qədər qalxıdan: M.F. Axundov - 200 // Mədəniyyət. - 2012. - 2 may. - № 30. - S. 7.
**Abbaslı T.** Sərgüzəşti - M.F.A. məktubları // Mədəniyyət. - 2012. - 29 iyun. - № 46. - S. 11.
**Abbasov İ.** M.F. Axundzadənin dövlət və hüquq haqqında görüşlərinin bəzi məsələləri: Mirzə Fətəli Axundzadə - 200 // Ədəbiyyat qəzeti. - 2012. - 12 may. - № 17. - S. 1-2.
**Abdullayev Ç.** Qərb və Şərq ədəbiyyatı tarixində M.F. Axundzadə və Ç.Dikkensin rolu // Ədəbiyyat qəzeti. - 2012. - 30 noyabr. - № 44. - S. 4.
**Adışirin T.** Bədii və ictimai düşüncəmizi aydınladan ədib // 525-ci qəzet. - 2022. - 14 aprel. - № 64. - S. 13.
**Arzumanlı V.** M.F. Axundzadənin Avropaya açılan pəncərəsi - Tiflis // Qobustan. - 2012. - № 4. - S. 54-59.
**Arzumanlı V.** M.F. Axundzadənin ədəbi irsi alman dilində // Ədəbiyyat qəzeti. - 2012. - 23 noyabr. - № 43. - S. 1, 3.
**Aslanlı M.** Mənəvi kamilliyə doğru: Mirzə Fətəli Axundov yaradıcılığında sağlamlıq mövzusu // Azərbaycan. - 2013. - № 8. - S. 185-189.

**Babayev B.** Xalq nə istəyirdi?: "Aldanmış kəvakib" povestinin ideya-estetik mündəricəsi // Azərbaycan : jurnal. - 2021. - № 10. - S. 197-201.
Bakıda Mirzə Fətəli Axundzadənin 200 illik yubileyi təntənəli mərasimlə qeyd edilmişdir: Baş nazirin müavini, xalq yazıçısı Elçin Əfəndiyevin məruzəsi // Xalq qəzeti. - 2012. - 28 noyabr. - № 265. - S. 5. ; Ədəbiyyat qəzeti. - 2012. - 30 noyabr. - S. 1-2.
**Bayramlı O. M**.F. Axundzadə və Azərbaycanda türkçülüyün ilk mərhələsi: Mirzə Fətəli Axundzadə - 200 // Ədəbiyyat qəzeti. - 2012. - 9 iyun. - № 21. - S. 5. ; 23 iyun. - № 23. - S. 1.
**Bayramlı Z**. M. F. Axundzadə və M. Füzuli // Ədəbiyyat qəzeti. - 2013. - 11 yanvar. - № 1. - S. 1, 3.
**Bayramova O.** XIX əsrin ikinci yarısında Azərbaycanda milli-mədəni hərəkatın təşəkkülü: M.F. Axundzadə - H.B. Zərdabi // Respublika. - 2020. - 8 iyul. - № 130. - S. 5.
**Bayramov A.** Xalq üçün yanan ürək: M.F. Axundzadə - 200 // Mədəniyyət. - 2012. - 20 yanvar. - № 4. - S. 13.
**Bədəlov N.** İksir - biri məlum, biri sirr // El. - 2012. - № 12. - S. 28-37.
**Cabbarlı C.** Mirzə Fətəli Axundov haqqında // Qobustan. - 2012. - № 4. - S. 5-7.
**Cəfəroğlu Ə.** XIX əsrdə Azərbaycanın ədəbi əlaqələri // Mədəniyyət.az. - 2017. - № 1. - S. 20-21.
**Dünyaminqızı Q.** Mirzə Fətəli Axundov və mətbuat // Kaspi. - 2012. - 17 iyul. - № 356. - S. 12.
**Dünyaminqızı Q.** Əli bəy Hüseynzadəni yetişdirən Baba: Mirzə Fətəli Axundov onu "tayı-bərabəri olmayan Şeyxülislam" adlandırırdı // Kaspi. - 2017. - 14 fevral. - № 27. - S. 15.
**Dünyaminqızı Q.** Qələmin şərəfini uca tutmuş Mirzə Fətəli Axundzadə: Zamana məğlub olmayan bu böyük insan taleyin

qismətinə məğlub oldu // Kaspi. - 2016. - 2 sentyabr. - № 137. - S. 15.
**Eminov A**. Ömrü boyu gələcək haqqında düşünən mütəfəkkir: Mirzə Fətəli Axundzadə - 200 // Psixoloq. - 2012. - № 7. - S. 7.
**Elcanlı S.** "Poeziya": Aşkarlığın gizlinləri: "Poeziya"nın M.F. Axundzadəyə həsr edilən sayından kiçik bir mətn // Ədəbiyyat qəzeti. - 2015. - 16 yanvar. - № 2/3. - S. 6.
**Əbdülsəlimzadə Q**. M.F. Axundzadənin siyasi-ictimai və sosial-iqtisadi görüşləri // Respublika. - 2012. - 4 avqust. - № 172. - S. 5. ; 5 avqust. - № 173. - S. 3. ; 8 avqust. - № 175. - S.6. ; 9 avqust. - № 176. - S. 5.
**Əbdürrəhimova M.** Böyük dramaturqun vətənində : M.F.Axundov haq-da // Mədəni - Maarif. - 2005. - №10. - S.11-12.
**Əfəndiyev Ə.** Klassik ədəbi irsimizi tədqiq edən nəsillərin estafeti: Mirzə Fətəli Axundzadə - 200 // Ədəbiyyat qəzeti. - 2012. - 14 iyul. - № 26. - S. 2.
**Əfəndiyev Ə.** M.F. Axundzadə və Qərbi Avropa ədəbi-nəzəri fikri // Ədəbiyyat qəzeti. - 2013. - 1 fevral. - № 4. - S. 4.
**Əfəndiyev T.** Mirzə Fətəli Axundzadə yaradıcılığında milli intibah ideyaları // 525-ci qəzet. - 2020. - 10 sentyabr. - № 107. - S. 10-11.
**Əhməd D.** Axundzadənin oğlu niyə intihar etdi? : Azərbaycan yazıçı-dramaturqu, Mirzə Fətəli Axundzadənin oğlu Rəşid Axundov haqqında // Naşir. - 2015. - № 1. - S. 20-23.
**Əhmədov H.** Böyük maarifçi və ictimai xadim // Azərbaycan məktəbi. - 2013. - № 1. - S. 35-44.
**Əhmədov H.** Tiflis qəza məktəbinin Azərbaycan dili müəllimi // Respublika. - 2012. - 7 dekabr. - № 273. - S. 7.

**Əhmədov R.** Gülmək və güldürmək səlahiyyəti: M.F. Axundov - 200 // Kaspi. - 2012. - 20 noyabr. - № 427. - S. 12. ; 21 noyabr. - № 428. - S.12.
**Əhmədov R.** Mirzə Fətəli Axundzadənin ədəbi tənqidi və ya onun imtahanından üzüağ çıxan Molla Pənah Vaqif // Kaspi. - 2017. - 2-4 dekabr. - № 205. - S. 7.
**Əhmədov T.** Böyük bir məramın böyük atası: Mirzə Fətəli Axundzadə - 200 // Ədəbiyyat qəzeti. - 2012. - 24 fevral. - № 7. - S. 1, 3.
**Əhmədov T.** Böyük ideallar mücahidi: M. F. Axundov - 200 // Respublika. - 2012. - 25 fevral. - № 45. - S. 8.
**Əlioğlu P.** Fərhad Mirzənin "Səfərnamə" əsəri // Ədəbiyyat qəzeti. - 2013. - 18 yanvar. - № 2. - S. 5.
**Əliyeva G.** Maarifçi idealın estetik mahiyyəti: M.F. Axundzadə - 200 // Mədəni həyat. - 2012. - № 9. - S. 77.
**Əsgərli Z.** M.F. Axundzadənin "Hekayəti-xırsi-quldurbasan" pyesinin janrı: Mirzə Fətəli Axundzadə - 200 // Azərbaycan dili və ədəbiyyatı tədrisi. - 2012. - № 3. - S. 5-9.
**Əsgərli Z.** M.F. Axundzadənin mütərcimlik fəaliyyəti // Ədəbiyyat qəzeti. - 2012. - 28 aprel. - № 15. - S. 1-2.
**Əsgərli Z.** M.F. Axundzadənin publisistikası // Azərbaycan. - 2013. - № 2. - S. 173-180.
**Əsgərli Z.** Qalib Mirzə Fətəli // Ədəbiyyat qəzeti. - 2012. - 19 oktyabr. - № 39. - S. 1.
**Əzizbəyli R.** Yubiley ərəfəsində yaradıcılıq əlaqələri: "Mürafiə vəkilləri" televiziya tamaşası böyük ədib Mirzə Fətəli Axundzadənin anadan olmasının 200 illiyinə töhfə olacaq // Mədəniyyət. - 2011. - 10. 08. - № 58. - S. 11.
**Feyziyev C.** Milli dünya görüşümüzün inkişafında Mirzə Fətəli Axundzadənin rolu : // Xalq qəzeti. - 2012. - 3 avqust. - № 171.

- S. 5. ; 5 avqust. - № 173. - S. 5. ; 4 avqust. - 4 avqust. - № 172. - S.7.

**Feyziyev C.** Milli dünyagörüşümüzün inkişafında Mirzə Fətəli Axundzadənin rolu: Mirzə Fətəli Axundzadə - 200 // Azərbaycan. - 2012. - № 8. - S. 165-177.

**Hacıyeva A.** M.F. Axundzadənin çevrəsindəki qadınlar: reallıq və rəmzlər // Azərbaycan. - 2013. - № 7. - S. 183-189.

**Hacıyeva A.** Mirzə Fətəli Axundzadə və çevrəsindəki qadınlar // Respublika. - 2013. - 17 mart. - № 59. - S. 6. ; 16 mart. - № 59(1). - S. 8

**Həbibbəyli İ.** Xoş gördük, Mirzə Fətəli Axundzadə: Mirzə Fətəli Axundzadə - 200 // Ədəbiyyat qəzeti. - 2012. - 16 mart. - № 10. - S. 4. ; 525-ci qəzet. - 2012. - 16 mart. № 47. - S. 4.

**Həmidov İ.** Mirzə Fətəli Axundzadə və ərəb-islam mədəniyyəti // Azərbaycan. - 2013. - № 1. - S. 166-172.

**Hüseynova Ü.** Mirzə Fətəli Axundovun yüzillik yubileyinə // 525-ci qəzet. - 2019. - 23 noyabr. - № 155. - S. 18. – Orij. nəşr. // Kaspi qəzeti. - 1911. - 7 may. - № 101.

**Xəlilzadə F.** Bütün bəşəriyyəti sevən Fətəli // Mədəniyyət. - 2012. - 14 dekabr. - № 91. - S. 13.

**Xəlilzadə F.** Məğrur və narahat Fətəli: M.F. Axundov - 200 // Mədəni həyat. - 2012. - № 11. - S. 62-64.

**Xəlilzadə F.** Məğrur və narahat Fətəli: M.F. Axundzadə - 200 // Azərbaycan. - 2012. - 10 mart. - № 56. - S. 7.

**İsmayılov R.** Mirzə Fətəli Tbilisidə inşa etdiyi bu evdə həyatının sonuna kimi yaşamışdır... // Mədəni Həyat. - 2014. - № 11. - S. 46-48.

**İsmayılova X.** Bütün zamanlar üçün aktual: Mirzə Fətəli Axundzadə - 200 // Azərbaycan. - 2012. - 17 may. - № 107. - S. 11.

**İsmayılova Z.** Böyük mütəfəkkir yazıçı: Mirzə Fətəli Axundov haqqında // Ədəbiyyat qəzeti. - 2010. - 26 noyabr. - N 45/46. - S. 2.

**Kamal R.** Anima: XIX əsr Azərbaycan ədəbiyyatında qadın ruhu // Ədəbiyyat qəzeti. - 2019. - 20 aprel. - № 13. - S. 10.

**Kamal R.** Homo scribens, yaxud Mirzə Fətəlinin tale yazısı // Ədəbiyyat qəzeti. - 2021. - 23 oktyabr. - № 42. - S. 9.

**Kamal R.** Mirzə Fətəli Axundzadə: Atanı unutmaq. Psixoanalitik etüd // Ədəbiyyat qəzeti. - 2017. - 18 fevral. - № 6. - S. 7.

**Kamal R.** Mirzə Fətəli və Rəşid bəy Axundzadələr: müharibə obraz kimi // Ədəbiyyat qəzeti. - 2017. - 29 iyuyl. - № 27. - S. 23

**Kamal R.** Mirzə Fətəli və sandıqdakı şəkillər // Ədəbiyyat qəzeti. - 2017. - 26 avqust. - № 30. - S. 21.

**Kamal R.** Sandıq: Yurd yerinin əlifbası silsiləsindən // Ədəbiyyat qəzeti. - 2021. - 6 mart. - № 10. - S. 7.

**Kamal R.** Zərli poqonlar işığında tövbə məqamı: Mirzə Fətəli Axundzadə, Abbasqulu ağa Bakıxanov, İsmayıl bəy Qutqaşınlı, Ömər bəy Şirvani // Ədəbiyyat qəzeti. - 2019. - 21 sentyabr. - № 32. - S. 9.

**Kazımzadə A.** Kino tariximizdən "Səbuhi" - 70: Azərbaycan maarifçisi, dramaturqu və filosofu Mirzə Fətəli Axundovun həyat və fəaliyyəti haqqında // Mədəniyyət. - 2011. 06. 07. - № 48. - S. 11.

**Koxalı A.** Gürcü poeziyasında Axundov obrazı // Ədəbiyyat qəzeti. - 2014. - 4 aprel. - № 12. - S. 6.

**Qarayeva P.** M.F. Axundzadənin altı komediyası və "Aldanmış kəvakib" povesti macar dilinə tərcümə edilir: Mirzə Fətəli

Axundov - 200 // Ədəbiyyat qəzeti. - 2012. - 20 yanvar. - № 2. - S. 6.

**Qeybullayeva R.** M.F. Axundovun “Aldanmış Kəvakib” povestində "Ulduz" personaj : Şah Abbas, Qurban motivi və Ulduz metamorfozaları // Azərbaycan. - 2014. - № 10. - S. 180-189.

**Qiyas Ə.** Mirzə Fətəli Axundov və "Dərviş Parisi partladır" filmi // Mədəniyyət. - 2008. - 9 may. - S. 13.

**Quliyev Q.** Ədəbiyyatda xaosmos: Mirzə Fətəli Axundzadənin komediyaları əsasında // Azərbaycan : jurnal. - 2019. - № 6. - S. 159-167.

**Quliyeva X.** Dünya maarifçi ədəbi estetik fikrinin əsas prinsipləri // Azərbaycan. - 2009. - N 11. - S. 169-173.

**Quliyeva Y.** Mirzə Fətəli Axundzadə yaradıcılığında "Hekayəti müsyö Jordan həkimi nəbatat və dərviş Məstəli şah cadukünі məşhur" zirvəsi // Mədəni Həyat. - 2014. - № 6. - S. 90-91.

**Quliyeva Y.** Mirzə Fətəli Axundzadənin pyeslərinə nəzər salarkən... // Mədəni Həyat. - 2014. - № 5. - S. 56-57.

**Quliyeva Y.** Mirzə Fətəli Axundzadənin yaradıcılığı haqqında bir neçə söz... // Mədəni Həyat. - 2014. - № 4. - S. 62-65.

**Mehdi N.** Janr kodlarının törətdiyi iki Azərbaycan: qəzəb törədən Azərbaycana qarşı sevgi doğuran Azərbaycan // Ədəbiyyat qəzeti. - 2019. - 19 yanvar. - № 2. - S. 4-5.

**Məhərrəmova T.** Axundzadənin "reabilitasiyası" // Kaspi. - 2012. - 30 noyabr. - № 435. - S. 6.

**Məhərrəmova T.** Ədəbi -mədəni fikrin ən yaxşı nümunələri: Azərbaycan ədəbiyyatı şair və yazıçıların Azərbaycan mədəniyyətinə də dünya mədəniyyətinə bəxş etdikləri ədəbi-mədəni fikrin ən yaxşı nümunələridir // Kaspi. - 2011. - 1 aprel. - № 55. - S. 12.

**Məhərrəmova T.** Sübhün səfiri: Mirzə Fətəli Axundovun anadan olmasının 200 illik yubileyi Türksoy çərçivəsində qeyd ediləcək // Kaspi. - 2012. - 11 yanvar. - № 225. - S. 12.

Mehparə. Böyük ədibin 200 illik yubileyi türkdilli ölkələrdə qeyd olunacaq: Türksoy "Mirzə Fətəli Axundzadə ili"nə start verdi // Mədəniyyət. - 2012. - 1 fevral. - № 7. - S. 3.

Mehparə. Mirzə Fətəli Axudzadə və XIX əsrdə qadın məsələsi // Mədəniyyət. - 2012. - 16 may. - № 34. - S. 12.

Məmmədov Ş. Millətin məqsədinə ətraflı bələd olan fitri istedad, yaradıcı qüvvə sahibi: 2012-ci il TÜRKSOY çərçivəsində M.F. Axundzadə ilidir // Azərbaycan Müəllimi. - 2012. - 13 yanvar. - № 2. - S. 7.

Məmmədov Ş. Mirzə Fətəli Axundzadənin əsərlərində vətənpərvərlik, elm, maarif və məktəb məsələləri // Təhsil problemləri. - 2012. - 16-23 yanvar. - №5/6. - S. 2.

Məmmədova D. Mirzə Fətəli Axundzadə ilə Qasım bəy Zakirin dostluğu: Mirzə Fətəli Axunzadə - 200 // Azərbaycan. - 2012. - № 7. - S. 183-185.

Məmmədova L. Rəsul Rzanın M.F. Axundzadə ədəbi irsinə münasibəti: M.F. Axundzadənin 200 illiyi ərəfəsində // Azərbaycan. - 2012. - № 4. - S. 190-193.

Mirzə Fətəli Axundov (1812-1878) : görkəmli şəxsiyyətlər // Savalan. - 2008. - 27-31 may. - S. 2.

Mirzə Fətəli Axundzadənin 200 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (13 aprel 2010-cu il) // Azərbaycan. - 2010. - 14 aprel. - N 78. - S. 2.

Mirzəli C. Axundzadə dramlarında sosial mühit // Kaspi. - 2020. - 25-27 yanvar. - № 13. - S. 18.

Mirzəyeva A. Ədəbiyyatdan dərs nümunəsi: M.F. Axundzadənin "Hekayəti-Müsyö Jordan və dərviş Məstəli şah"

komediyasının təhlili // Azərbaycan Müəllimi. - 2017. - 16 sentyabr. - № 35. - S. 12.
Mirzəyeva A. Ədəbiyyatdan dərs nümunəsi: M.F. Axundzadənin "Hekayəti-Müsyö Jordan və dərviş Məstəli şah" komediyasının təhlili // Azərbaycan Müəllimi. - 2017. - 16 sentyabr. - № 35. - S. 12.
Mükərrəmoğlu M. Türksoy 2012-ci ili “M. F. Axundzadə ili” elan etmişdir // Xalq qəzeti. - 2012. - 12 yanvar. - № 7. - S. 7.
Muradov B. M.F. Axundzadənin "Hacı Qara" əsərinin tədrisi: Mirzə Fətəli Axundzadə - 200 // Azərbaycan dili və ədəbiyyatı tədrisi. - 2012. - № 2. - S. 53-57.
Musayev Ş. Qurana and içirəm ki... : M.F. Axundzadənin bir məktubunda iki maraqlı məqam // Azərbaycan. - 2013. - № 6. - S. 176-179.
Novruzov T. Mirzə Fətəli Axundzadə zirvəsi: həyatı boyu mövhumat və cəhalətə qarşı ardıcıl mübarizə aparmış dramaturq bu gün də dərin hörmətlə anılır // Kaspi. - 2015. - 7-9 fevral. - № 24. - S. 6.
**Orucova N.** Natiqlik sənəti və nitq mədəniyyəitinin inkişafında M.F. Axundzadənin rolu // Azərbaycan dili və ədəbiyyat tədrisi. - 2017. - № 2. - S. 45-50.
**Osmanoğlu M.** "Vətən dili"nə gələn yol: Çar hökuməti məktəbdə Azərbaycan dilini mükəmməl öyrənən ruslara qızıl medal verirdi // Ədəbiyyat qəzeti. - 2017. - 29 iyul. - № 27. - S. 6.
**Osmanoğlu M.** Hacı Nurunun şeir dəftəri: Mirzə Fətəli şair Hacı Nurunun dəftəri ilə ədəbiyyatımıza yaddaşdan məhrum olmağın tragik komediyasını gətirmişdir // Ədəbiyyat qəzeti. - 2016. - 10 sentyabr. - № 33. - S. 7.

**Osmanoğlu M.** Naməlum millət vəkilinin millət haqqında düşüncələri: Mirzə Fətəli Axundzadənin türkçülük ideyaları haqqında // Ədəbiyyat qəzeti. - 2015. -25 iyul. - № 45. - S. 6.

**Ömərov V.** Mirzə Fətəli Axundzadənin Şərqdə və Qərbdə insan hüquq və azadlıqlarının vəziyyəti haqqında müqayisəli təhlili // Səs. - 2018. - 23 oktyabr. - № 200. - S. 15.

**Parsinejad İ.** M.F. Axundzadənin ədəbi tənqidi: M.F. Axundovun 200 illiyi ərəfəsində // Azərbaycan. - 2012. - № 2. - S. 168-176.

**Parsinejad İ.** M.F. Axundzadənin ədəbi tənqidi: M.F. Axundzadə - 200 // Ədəbiyyat qəzeti. - 2012. - 29 sentyabr. - № 36. - S. 3. ; 5 oktyabr. - № 37. - S.4.

**Paşayeva S.** Mark Tven və M.F. Axundov tənqidi realizmi // Ədəbiyyat qəzeti. - 2021. - 16 oktyabr. - № 41. - S. 28-29.

**Salamoğlu T.** Bir daha Mirzə Fətəli Axundzadənin Füzuliyə münasibəti haqqında // Ədəbiyyat qəzeti. - 2012. - 28 dekabr. - № 48/52. - S. 5.

**Salmanoğlu T.** Axundzadəşünaslığı çıxış nöqtəsi kimi alaraq... : (Zaman Ələsgərlinin "Mirzə Fətəli Axundzadə" monoqrafiyası haqqında düşüncələr // Kaspi. - 2017. - 18 noyabr. - № 195. - S. 23.

**Sərvaz.** “Sübhün səfiri” filmi təqdim edildi // Ədəbiyyat qəzeti. - 2012. - 30 noyabr. - № 44. - S. 2.

**Sultan M.** Sübhün idrak işığında: Mirzə Fətəli Axundzadə - 200 // 525-ci qəzet. - 2012. - 20 mart. - № 49. - S. 7.

**Sultanova S.** Ekranlaşmış ədəbi əsərlər // Ədəbiyyat qəzeti. - 2019. - 9 fevral. - № 5. - S. 12-13.

**Şamıoğlu Ş.** "Axundzadə" yoxsa "Axundov" // Ədəbiyyat qəzeti. - 2014. - 12 dekabr. - № 48. - S. 10.

Şamıoğlu Ş. Bir daha M.F. Axundzadənin doğum və ölüm tarixləri barədə // Ədəbiyyat qəzeti. - 2014. - 18 aprel. - № 14. - S. 4.
**Şamıoğlu Ş.** M.F. Axundzadə yaradıcılığında Avropaya inteqrasiya məsələsi // Ədəbiyyat qəzeti. - 2014. - 25 iyul. - № 28. - S. 12-13.
**Şamıoğlu Ş.** M.F. Axundzadənin "Qəribə hekayə" əsəri və onun maraqlı tarixçəsi // Ədəbiyyat qəzeti. - 2017. - 8 aprel. - № 12. - S. 22-23.
**Şamıoğlu Ş**. Mirzə Fətəlini Tiflisdə işə kim düzətlmişdi: Mirzə Fətəli Axundzadə - 205 // Ədəbiyyat qəzeti. - 2017. - 8 iyul. - № 24. - S. 30-31.
**Şirvanski H.** Mirzə Fətəlinin yubileyinə // 525-ci qəzet. - 2019. - 7 dekabr. - № 161. - S. 18-19.
**Təranə.** Azərbaycan ziyalılarının ən parlaq nümayəndəsi: Mirzə Fətəli Axundzadənin yaradıcılığı // Kaspi. - 2011. - 12 iyul. - № 120. - S. 15.
**Vahid M.** Azərbaycanın tərcümə tarixində Mirzə Fətəli Axundzadənin yeri: Professor Zaman Əsgərlinin xatirəsinə ithaf edilir // Ədəbiyyat qəzeti. - 2019. - 6 iyul. - № 23. - S. 18-19 ; 13 iyul. - № 24. - S. 14.
**Vahid T.** Azad düşüncənin ilk mehi və ya uzun yolun başlanğıcı: Mirzə Fətəli Axundov - 120 // Mədəniyyət. - 2012. - 6 aprel. - № 23. - S. 13. ; 11 aprel. - №24. - S.13.
**Yusifli C.** Axundov yaddaşı // Ədəbiyyat qəzeti. - 2018. - 24 fevral. - № 7. - S. 10-11.
**Yusifli C.** Klassiklərin duyulması // Ədəbiyyat qəzeti. - 2021. - 10 iyul. - № 29. - S. 13.

**Yusifli C.** Kosmik sirlər əhatəsində: Keçmişim və gələcəyin tərcüməsi. II yazı // Ədəbiyyat qəzeti. - 2020. - 22 avqust. - № 32/33. - S. 30.
**Yusifli V.** Xətib Təbrizidən M.F. Axundzadəyə qədər // Ədəbiyyat qəzeti. - 2016. - 30 yanvar. - № 4. - S. 29.
**Zəkiyev İ.** M.F. Axundzadənin naməlum ərizəsinin məlum şərhi // Qobustan. - 2012. - № 4. - S. 16-23.

**Qələmində hər nəsli düşünən Mirzə Fətəli Axundov**

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**